# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

29 dekabr 2015-ci il
№ 45-46 (9003)
Qiyməti 38 qəpik

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


## Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.



Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına - Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 dekabr 2015-ci il.

## TƏBRİK

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi Gəmiçiliyin bütün işçilərini qarşıdan gələn bayramlar – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı, firavan həyat, səadət, dəniz nəqliyyatının inkişafı və müstəqil Azərbaycanımızın tərəqqisi naminə fəaliyyətlərində yeni-yeni uğurlar arzulayır.**

**2016-cı ildə süfrələriniz zəngin, üzünüz gülər, yolunuz həmişə açıq olsun!**

**Bayramınız mübarək!**

# YENİ İL GƏLİR



**İllər ildırım sürətilə ötüb keçir. Buna baxmayaraq, hər biri həyatımızda dərin iz buraxır. İl ayrıcında ixtiyarsız olaraq dönüb arxaya baxır, yaddaşımızı vərəqləyir, ötən ilin acılı-şirinli anlarını yada salırıq.**

Ömrümüzdən bir il də keçir. Yaşımızın üstünə bir il də gəlir.

Bir neçə gündən sonra 2015-ci ilə əlvida deyib, 2016-cı ilin gəlişini bayram edəcəyik. Yeni ilin gəlişi isə həmişə sevinclə müşayiət olunub. Köhnə ilin necə keçməsindən asılı olmayaraq, bütün dünya Yeni ilin pişvazına çıxmağı xoşlayır. Çünki Yeni il yeni arzular, yeni diləklər, yeni ümidlər deməkdir. Çünki Yeni il görəcəyimiz yeni işlər, qazanacağımız yeni uğurlar deməkdir. Çünki Yeni il yeni sevinc, yeni fərəh deməkdir.

Bəli, böyük layihələrin gerçəkləşdirilməsi, müxtəlif əlamətdar hadisələr, yeniliklərlə yaşanan 2015-ci il tarixin arxivinə üz tutur. Elə bir millət, xalq tapılmaz ki, ilin bütün günləri onun üçün ancaq bayramdan, sevincdən ibarət olsun. Hecə keçməsindən asılı olmayaraq, təqvimdən qopan ilə əlvida deməyə borcluyuq. Gözəl anlaşdığımızdan və ya ümidlərimizin çoxunu doğrulda bildiyindənmi bəzən köhnə il yaxşı baxdığımız qonaqlar kimi, getməyin vacib olduğunu ev yiyəsindən gözəl anlasa da, 365 günün bir gözqırpımı olduğunu, vaxtın tez keçdiyini deyir.

Əsas odur ki, nə köhnə ilin bizim, nə də bizim onun yanında üzümüz qara olmasın.

2015-ci ildə bütün sahələrdə əldə etdiyi nailiyyətlər müstəqil Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da artırdı. Əlçatmaz sayılan layihələrin gerçəkləşdirilməsi, iftixar hissləri doğuran uğurlarımızın çoxalması Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu və möhtərəm Prezidentimiz İlham Əliyevin ardıcıllıqla həyata keçirdiyi və inkişaf etdirdiyi siyasi-iqtisadi kursun alternativi olmadığını bir daha təsdiqlədi.

"Bakı-2015" kimi möhtəşəm qitə tədbirinin ölkəmizdə yüksək səviyyədə keçirilməsi isə bizə sonsuz sevinc bəxş etməklə yanaşı, Azərbaycanı əbədi olaraq ilk Avropa Oyunlarının Vətəninə çevirdi.

Yola saldığımız il Gəmiçilik üçün də uğurlu oldu. Dövlət başçımız cənab İlham Əliyevin iyunun 24-də imzaladığı Sərəncamlarla dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin 8 işçisi "Tərəqqi" medalı ilə təltif edildi, 1 nəfər isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görüldü.



Gəmilərimizin xarici sularda möhkəmlənməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, Bakı Gəmiqayırma Zavoduna sifariş edilmiş 3 sərnişin gəmisindən birincisinin suya buraxılması və sair cari ilin yaddaqalan və fərəhli hadisələrindəndir.

Bütün dünya Yeni ili xüsusi şənliklə qeyd edir. Çünki hamı köhnə ildə yarımçıq qalmış işlərin, qovuşmadığı arzuların məhz təzə ildə göyərəcəyinə, həyata keçəcəyinə ürəkdən inanır.

Budur, təzə – 2016-cı illə üzbəüz dayanmışıq.

Bizim üçün Yeni il axşamının bir özəlliyi və gözəlliyi də var. Bu da Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün həmin axşama düşməsidir. Doğrudur, Yeni ilin gəlişini biz adətən, Novruz bayramında qeyd edirik. Amma Yeni təqvim ilini də eyni məhəbbətlə qarşılayırıq. Arzumuz budur ki, Yer üzündə sülh olsun, insanlar öz halal ocaqlarında xoşbəxt yaşasınlar. 2016-cı il Azərbaycana QƏLƏBƏ gətirsin, işğalda qalan torpaqlarımızın qaytarılması ilə əlamətdar olsun! 2016-cı il xalqımızın tarixinə heç vaxt unudulmayacaq Qalibiyyət ili kimi düşsün!

**Allah, sən ki, bilirsən**
**Bu millətin, bu xalqın**
**Necə mərd olduğunu.**
**Çıxart onu ağ günə,**
**Unutsun birdəfəlik**
**Dərdin nə olduğunu.**

*Rasif TAHİROV*

*31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü*

# Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan



**Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi məhrumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir.**

***Ümummilli lider Heydər ƏLİYEV***

**Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var – Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək. Bu işdə hamınıza uğurlar diləyirəm.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan xalqı, ümumən dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-də milli həmrəylik gününü qeyd edirlər. Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəklərdə Vətən eşqi, milli-mənəvi birlik, inkişaf hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə 24 il əvvəl həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.**




Müasir dövrdə xarici siyasət və diplomatiya sahəsində mühüm uğur əldə etməyin əsas şərtlərindən biri də güclü lobbiyə, diaspora sahib olmaqdır. Əks təqdirdə, milli məsələlərin beynəlxalq müstəviyə qaldırılması mümkün deyildir. Ona görə də Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli, ardıcıl siyasət yeritməyə çalışır. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hələ 1991-ci il dekabrın 16-da Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərarı yenicə müstəqilliyini elan etmiş Azərbaycanın ilk tarixilik qazanmış fundamental sənədlərindən biri olmuşdur. Çünki 1991-ci ilin oktyabrında canı, qanı bahasına müstəqillik nemətinə qovusmuş Azərbaycanda cəmiyyətin qütbləşərək parçalanması, milli maraq və mənafelər ətrafında səfərbər olunmaması, birlik və həmrəylik ideyalarının özünə yer tapmaması ciddi problem kimi özünü göstərmiş, milli inkişafı əngəlləyən amilə çevrilmişdi. Bunun nəticəsi kimi də 1993-cü ilin iyun ayınadək Azərbaycanda vətəndaş sülhü və həmrəyliyi mövcud olmamış, cəmiyyətdəki siyasi konfrontasiya kəskinləşərək ağır siyasi böhrana gətirib çıxarmış, bütövlükdə ölkə parçalanmaq və müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdi.

1993-cü ilin iyununda xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev bu mərhələdən etibarən xarici ölkələrə – Fransa, Böyük Britaniya, Türkiyə, ABŞ, Almaniya, Ukrayna, Belarus, Polşa, Rumıniya, Belçika, Norveç, Bolqarıstan və digər ölkələrə səfərləri zamanı azərbaycanlılarla müntəzəm görüşlər keçirmiş, xaricdə yaşayan soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa səsləmişdir.

1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında bu istiqamətdə əsas prinsipləri müəyyən etmişdi: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Ümummilli lider çıxışlarında dəfələrlə qeyd etmişdir ki, vaxtilə xaricdə oxumağa göndərilən gənclər diaspor quruculuğu məsələlərində həmişə öndə olmalıdırlar.

Azərbaycan diasporunun təşkilatlanması prosesində ən mühüm, taleyüklü hadisələrdən biri də 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi baxımından yeni mərhələnin əsasını qoymuşdur. Qurultaydan sonra Xaricdə Yaşayan Azərbaycanlılarla İş sahəsində Dövlət Komitəsinin yaradılması və xüsusi qanunun qəbulu bu sahədə dövlət siyasətinin daha da təkmilləşdirilməsinə, vahid mərkəzdən idarə olunmasına imkan yaratmışdır. Tədbir azərbaycanlıların konsolidasiyası prosesində keyfiyyətcə yeni mərhələ açmışdır.

Ulu öndər Heydər Əliyev milli ideologiyamızın əsasını təşkil edən azərbaycançılıq ideologiyasının bünövrə prinsiplərinin "dövlətçilik" və "milli vətənpərvərlik"dən ibarət olduğunu dəfələrlə vurğulamışdır. Ümummilli lider bildirmişdir ki, bizim bütün təbliğatımız, bütün dövlət orqanları Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hissləri yaratmalıdır.

Ulu öndərin diaspor quruculuğu siyasətini inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə hansısa ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü dəfələrlə vurğulamışdır.

Azərbaycan xalqının əvəzsiz milli sərvəti olan müstəqiliyin əzmlə qorunub saxlanılması və möhkəmləndirilməsi, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımların atılması, Avroatlantik məkana inteqrasiya siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyasının reallaşdırılması respublikamızı intensiv inkişaf yoluna çıxarmışdır. İnkişaf və tərəqqi yolunda əldə etdiyimiz böyük nailiyyətlərdə, şübhəsiz, dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində azərbaycançılıq amalı daşıyan həmvətənlərimizin də müstəsna payı var.

Azərbaycanın inamla irəliyərək iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrinə səpələnmiş həmvətənlərimizi daha da ruhlandırmış, onların müstəqil dövlətin xoşbəxt sabahına inamını artırmışdır. Qazanılmış nailiyyətlər ölkə daxilində milli birlik və vətəndaş sülhünün möhkəm əsaslarla intişar tapmasına, dünya azərbaycanlıları arasında həmrəyliyin təmin olunmasına, onların tarixi Vətənlə əlaqələrinin genişlənməsinə səbəb olmuşdur.

Prezident İlham Əliyev demişdir: "Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilərlər".

Son illər Cənubi Qafqazda həyata keçirilən bütün qlobal enerji və kommunikasiya layihələrinin lokomotivi qismində çıxış edən Azərbaycan dünyada kifayət qədər tanınsa da, bu sahədə hələ çox iş görülməli, erməni lobbisinin, bütövlükdə isə antiazərbaycançı şəbəkənin ölkəmizə qarşı apardığı əks-təbliğatın qarşısı daha səmərəli vasitələrlə alınmalıdır. Dövlət başçısı cənab İlham Əliyev Dünya Azərbaycanlılarının III Qurultayındakı çıxışında bu məsələyə xüsusi diqqət ayırmış, respublikamız haqqında məlumat qıtlığının tamamilə aradan qaldırılması vacibliyini qeyd etmişdir: "Diaspor təşkilatlarının fəaliyyəti, eyni zamanda, erməni lobbisinin Azərbaycan əleyhinə apardığı çirkin kampaniyaya qarşı tutarlı bir cavabdır. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində bizim nə böyük maliyyə imkanlarımız var idi, xaricdə yaşayan azərbaycanlılar da o vaxt hələ təşkilatlanmamışdılar. Ancaq hazırda bütün ölkələrdə diaspor təşkilatlarımız erməni təbliğatına qarşı Azərbaycan reallıqlarını ortaya qoyurlar. Mən bu hərəkətləri, bu siyasəti alqışlayıram və bizim diaspor təşkilatlarının üzvlərinə bu fədakar və çox gözəl missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. Biz çalışmalıyıq ki, Azərbaycan haqqında reallıqları bütün dünyaya bildirək".

Ötən illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə hüquqi, siyasi, iqtisadi, struktur islahatların keçirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, xalqın rifahının yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülmüşdür. Bu müddətdə təbii ki, Azərbaycan diasporu da inkişaf etmiş, təşkilatlanmış, birləşmək, "çəkici bir yerə vurmaq" istiqamətində nailiyyətlər əldə etmişdir. Bütün bunlar dünya azərbaycanlılarının birliyini, vahid məram və məqsədlər ətrafında birləşməsini zəruri milli ideyaya çevirmişdir.

**A. ƏLƏKBƏROV**

# AXDG Xəzər hövzəsində Sosial Korporativ Məsuliyyəti üzrə fəaliyyətinə dair Davamlı İnkişaf haqqında hesabatını açıqlayan ilk gəmiçilik şirkəti olacaq

**Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə "Ernst & Young" beynəlxalq audit şirkəti arasında 2014-2015-ci illər üçün AXDG-nin Davamlı İnkişaf haqqında hesabatının auditinin keçirilməsi haqqında müqavilə imzalanıb.**

Hazırda mütəxəssislər tərəfindən işlənən Hesabatın 2016-cı ilin birinci yarısında "Ernst & Young" şirkətinə təqdim edilərək, müstəqil auditor rəyinin alınması nəzərdə tutulub.

Qeyd edək ki, Davamlı İnkişaf haqqında hesabat AXDG-nin Sosial Korporativ Məsuliyyəti üzrə fəaliyyətinin iqtisadi, sosial və ekoloji təsirlərinin şəffaf şəkildə açıqlanmasını təmin edir. Sənəddə 2014-2015-ci illərdə keyfiyyət, sağlamlıq, ətraf mühitin qorunması, əməyin mühafizəsi, kadrların idarə edilməsi və digər sosial sahələrdə yerinə yetirilmiş işlər və əldə olunmuş nailiyyətlər öz əksini tapacaq.

Gəmiçiliyin Davamlı İnkişaf haqqında hesabatı Beynəlxalq Qlobal Hesabatlılıq Təşəbbüsünün GRI Sisteminin logistika və nəqliyyat xidmətlərinə dair mövcud tələblərinə uyğun olaraq hazırlanır. Bu hesabat dərc edildikdən sonra AXDG Xəzər hövzəsində Sosial Korporativ Məsuliyyəti üzrə fəaliyyətinə dair Davamlı İnkişaf haqqında hesabatını açıqlayan ilk gəmiçilik şirkəti olacaqdır.

# Türkiyədən Orta Asiyaya hərəkət edən yük maşınları üçün Xəzər üzərindən marşrutda əlverişli şəraitin yaradılması AXDG-nin daim diqqət mərkəzindədir

**Türkiyədən Orta Asiya, xüsusilə də Qazaxıstan istiqamətində yük maşınları ilə daşımalar üçün Xəzər üzərindən marşrutda əlverişli şəraitin yaradılması ilə əlaqədar, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqlarının icrası "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (AXDG) tərəfindən ciddi diqqət mərkəzində saxlanılır.**

Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının tərkibinə daxil olan AXDG Azərbaycan ərazisindən tranzitlə keçən yüklər üçün bir pəncərə sisteminin yaradılması, vahid və endirimli yükdaşıma tariflərinin tətbiq edilməsi və keçid prosedurlarının sadələşdirilməsi istiqamətində müvafiq qurumlar ilə birgə işləyir.

Yük maşınlarının daha tez və vaxtında daşınması məqsədi ilə, AXDG Bakı-Aktau istiqamətində bərələrin mütəmadi səfər qrafikini təsdiq etmişdir. Qeyd etmək lazımdır ki, həftədə 2 reys nəzərdə tutulmasına baxmayaraq, limanda yığılmış yük maşınlarının sayını nəzərə alaraq, AXDG Ələt limanından Aktau istiqamətinə bərələrin növbədənkənar reyslərini də təşkil etmişdir. Aşağıdakı cədvəldə 1 dekabr 2015-ci il tarixindən dekabrın 13-nə kimi Ələt-Aktau istiqamətində yola salınmış bərələr haqqında məlumat təqdim edilmişdir:

| Tarix | İstiqamət | Gəmi | Limanda olan yük maşınlarının sayı | Gəmiyə yüklənmiş maşınların sayı | Qeyd |
|---|---|---|---|---|---|
| 1 dekabr-2015 | Ələt-Aktau | "Akademik Zərifə Əliyeva" | 14 | 11 | |
| 2 dekabr-2015 | Ələt-Aktau | "Akademik Həsən Əliyev" | 3 | 2 | |
| 4 dekabr-2015 | Ələt-Aktau | "Şahdağ" | 18 | 10 | 4 dekabr tarixindən hava şəraiti kəskin pisləşmiş və Xəzərdə güclü qasırğa olmuşdur. |
| 5 dekabr-2015 | Ələt-Aktau | "Azərbaycan" | 24 | 2 | |
| 8 dekabr-2015 | Ələt-Aktau | "Naxçıvan" | 96 | 34 | |
| 9 dekabr-2015 | Ələt-Aktau | "Akademik Həsən Əliyev" | 110 | 33 | |
| 12 dekabr-2015 | Ələt-Aktau | "Akademik Zərifə Əliyeva" | 206 | 13 | |
| 13 dekabr-2015 | Ələt-Aktau | "Azərbaycan" | 196 | 33 | |
| | | "Bərdə" | | 12 | |
| | | "Akademik Həsən Əliyev" | | | Reys planlaşdırılır |

Qeyd edək ki, 4 dekabr 2015-ci il tarixində Xəzərdə son 10 il ərzində olmayan ən

Qeyd edək ki, 4 dekabr 2015-ci il tarixində Xəzərdə son 10 il ərzində olmayan ən güclü qasırğa baş vermişdir ki, bu da bərələrin hərəkət qrafikinə çox ciddi təsir etmişdir. Belə ki, son günlərdə bərələrin ardıcıl olaraq Aktau limanına yola salınmasına baxmayaraq, 6-9 dekabr tarixlərində 4 ədəd bərə Aktau limanına gəlmiş, lakin hava şəraitinin kəskin olması səbəbindən Aktau limanı qapalı elan olunmuş və bərələr körpüyə yan ala bilməyərək, lövbərdə havanın düzəlməsini gözləməli olmuşlar. Təbiidir ki, qeyd olunan hal, bu müddət ərzində limanda yeni yük maşınlarının toplanmasına səbəb olmuşdur. Lakin, Türkiyəyə məxsus yük maşınlarının vaxtında və təhlükəsiz daşınması AXDG üçün ən mühüm məsələlədən biri olduğunu nəzərə alaraq, hava şəraitinin düzəlməsi ilə bərələrin yenidən təyin olunmuş qrafik ilə hərəkət etməsi təmin olunur. Onu da vurğulamaq lazımdır ki, Aktau limanında bərələr üçün 1 ədəd yanalma körpüsünün olması və bu körpünün qasırğa və yüksək dalğalardan qorunmaması vəziyyəti bir qədər də çətinləşdirmişdir. Hal-hazırda AXDG-nin iki bərəsinin boşaldılması Aktau limanındakı yanalma körpüsündə yaranan texniki nasazlığa görə ləngiyir.

Bundan əlavə qeyd etmək istərdik ki, yük maşınlarının daşınmasına daimi nəzarəti təmin etmək məqsədi ilə, AXDG-də xüsusi işçi qrupu yaradılmışdır və qaynar xətt ayrılmışdır. Daxil olan zənglərdə tariflər, daşıma müddəti və bərələr haqqında suallar mütəxəssislər tərəfindən ətraflı cavablandırılır. Eyni zamanda, işçi qrupunun nümayəndələri mütəmadi olaraq, Ələt limanına baş çəkirlər, yük maşınlarının sürücüləri ilə ünsiyyətdə olurlar və onları narahat edən məsələləri mümkün qədər qısa müddətdə həll edirlər. Belə ki, limana girişdən öncə kassa yerləşdirilmiş və daşıma qiymətlərini və şərtlərini özündə əks etdirən lövhə quraşdırılmışdır.

# İstismarda olan bərələrin sayı artırılır





**Türkiyədən Orta Asiya istiqamətində tranzit hərəkət edən yük avtomobillərinin Xəzərdən daşınmasını sürətləndirmək məqsədilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bərələrinin istismara mümkün qədər tez qaytarılması üçün bütün tədbirləri görür.**

Belə ki, qısa bir zamanda iki gəmi-bərə - "Qarabağ" və "Akademik Topçubaşov" istismara verilib. Əgər noyabr ayında AXDG-nin 8 bərə və 2 Ro-Ro (təkərli texnika daşıyan) gəmisi istismarda idisə, hazırda 12 gəmi, o cümlədən 10 bərə və 2 Ro-Ro gəmisi Xəzər dənizində vaqon və təkərli texnika daşımalarına cəlb olunub. Eyni zamanda daha 2 gəmi-bərə - "Professor Gül" və "Merkuri-1" ilin sonuna qədər istismara buraxılacaq. Bu da istismarda olan bərə və Ro-Ro gəmilərinin sayını 14-ə çatdırmağa imkan verəcək.



İstismarda olan gəmilərdən 5 bərə və 1 Ro-Ro gəmisi Bakı-Aktau, digər 5 bərə və 1 Ro-Ro gəmisi isə Bakı-Türkmənbaşı istiqamətində daşımalara cəlb olunub.

Eyni zamanda, Aktau və Türkmənbaşı limanlarında yaranan sıxlıqla bağlı Gəmiçilik mütəmadi olaraq bu limanlarla əlaqə saxlayır və gəmilərin boşaltma-yükləmə əməliyyatlarının tezləşdirilməsi üçün tədbirlər görür. Sıxlıqların əsas səbəbi hava şəraitinin əlverişli olmamasıdır. Belə ki, dekabr ayının 16 və 18 tarixlərində Bakıdan çıxan "Akademik Zərifə Əliyeva" və "Akademik Həsən Əliyev" gəmi-bərələri bu yazı qələmə alındığı günə kimi - dekabrın 22-dək Aktau limanında körpüyə yan ala bilməmişdilər.

Qeyd edək ki, hazırda AXDG-nin 13 bərə gəmisi vardır. Yükdaşımaların həcmlərindən asılı olaraq gəmi-bərələr isismarda və ya yükdaşımalar azaldıqda, istismar ehtiyatında saxlanılır. Gəmilərin istismar ehtiyatında saxlanılması xərclərin azaldılmasına imkan verir, digər tərəfdən isə yük həcmləri artdıqda, istismar ehtiyatında olan gəmilər istismara qaytarılırlar.

Dekabr ayının əvvəlindən yaranan vəziyyəti nəzərə alaraq, Gəmiçiliyin rəhbərliyi istismar ehtiyatında olan gəmi-bərələrin operativ qaydada istismara qaytarılması ilə bağlı qərar vermişdir.

# Bilik yarışlarında uduzan olmur

**Dekabrın 14-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Gənclər Mərkəzinin təşkilatçılığı və Azərbaycan Dövlət Dəniz Akademiyasının dəstəyi ilə Akademiyada Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş bilik yarışı keçirildi.**

Tədbir iştirakçıları əvvəlcə Ulu öndərin və "Günəşli" yatağındakı 10 nömrəli dəniz özülündə güclü qasırğanın doğurduğu qəza nəticəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.









"AXDG" QSC İnsan resurslarının idarəedilməsi departamentinin təlim üzrə mütəxəssisi Cabir Süleymanlı çıxışında bildirdi ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında və davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin, biliyin rolu getdikcə artır. Müasir dünyanın artan yeni tələbləri və ölkədə yüksək biliyə malik cəmiyyətin qurulması zərurəti Azərbaycan gəncliyi qarşısında tamamilə yeni tələblər qoyur. Gənclərin intellektual və yaradıcılıq potensialının inkişafı, onların daha geniş miqyasda intellektual fəaliyyətə cəlb edilməsi, elm, təhsil və yeni texnologiyalara marağının artırılması zərurəti bu istiqamətdə kompleks tədbirlərin həyata keçirilməsini aktuallaşdırıb.

Gənclərin bilik və dünyagörüşlərinin, onların komanda şəklində işləmək bacarıqlarının artmasına kömək edəcək belə tədbirlərin əhəmiyyətini vurğulayan Cabir Süleymanlı yarışın şərtlərini açıqlayandan sonra meydan Gəmiçiliyin öz biliyinə güvənən gənclərinə – "AXDG" QSC Aparatının, Xəzər Dəniz Neft Donanmasının, Dəniz Nəqliyyatı Donanmasının, "Bibiheybət " və "Zığ" gəmi təmiri zavodlarının, Azərbaycan Dövlət Dəniz Akademiyasının komandalarına verildi.

Bilik yarışı gərgin mübarizə şəraitində keçdi. 3 turun nəticələrinə görə qalibləri müəyyənləşdirmək mümkün olmadı. XDND-nin və "Bibiheybət" Gəmi Təmiri Zavodunun komandaları bütün rəqiblərini üstələsələr də, eyni nəticə göstərdiklərinə görə əlavə sınağa çəkildilər. Növbəti mərhələdə isə dənizçilər fərqləndilər. Beləliklə, əlavə sualları daha doğun cavablandıran Xəzər Dəniz Neft Donanmasının komandası birinci yerə layiq görüldü. "Bibiheybət" Gəmi Təmiri Zavo-








dunun komandası ikinci, "Zığ" Gəmi Təmiri Zavodunun komandası isə üçüncü yeri tutdular.

Hamiyəçi elektromexanik Ramiz Rüstəmov, hüquq məsləhətçisi Bəxtiyar Əliyev, Mülki müdafiə qərargahının rəisi Elvin Məlikli, iqtisadçı Vüsal Hüseyn və kapitanın ikinci köməkçisi Zaur Məmmədovdan ibarət qalib komandanın üzvlərinə müvafiq sertifikatlar təqdim edildi.

Adətən belə yarışlar iştirakçıların intellektual səviyyəsinin yüksəlməsinə, onlarda qısa vaxt kəsiyində dəqiq qərarlar vermək vərdişlərinə yiyələnmələrinə təkan verir. Gəmiçiliyin Gənclər Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən bu tədbirdə əslində uduzan olmadı. Hər bir iştirakçı, hər bir komanda, deməli bütövlükdə həm də Gəmiçilik uddu.

**Rasif TAHİROV**

# 20 milyon dollar təzminat ödəyəcək



**Türkiyə ilə İsrail arasında münasibətlərin normallaşmasına dair razılaşmanın detalları məlum olub.**

Türkiyənin "Vatan" qəzetinin verdiyi xəbərə görə, ilkin razılaşmanı İsveçrədə İsrailin Baş naziri Benyamin Netanyahu və Türkiyə Xarici İşlər Nazirliyinin aparat rəhbəri Firudin Sinirlioğlu imzalayıblar.

Razılaşmanın maddələri bunlardır:

1. İsrail tərəfi hadisə zamanı ölən 10 Türkiyə vətəndaşının ailələrinə 20 milyon dollar təzminat ödəyəcək.

2. İki ölkənin səfirliklərinin fəaliyyəti bərpa ediləcək, geri çağırılan səfirlər yenidən göndəriləcək.

3. Türkiyə İsrail hərbçilərinə qarşı məhkəmə prosesindən imtina edəcək. Bu barədə Türkiyə Böyük Millət Məclisində qanun qəbul ediləcək.

4. HƏMAS təşkilatının Türkiyədəki fəaliyyəti məhdudlaşdırılacaq. Təşkilatın liderlərindən sayılan Salih əl-Aruri Türkiyədən deportasiya ediləcək. Əl-Aruri üç İsrail hərbçisini qaçıraraq, öldürməkdə təqsirləndirilir.

5. Təbii qazla bağlı müzakirələr aparılacaq. Razılaşma imzalandığı gündən Türkiyə və İsrail bu sahədə birgə fəaliyyət göstərəcək, İsrail qazının Türkiyə və Avropaya nəqli üçün boru xətti tikiləcək.

Qeyd edək ki, İsrail hərbçiləri 2010-cu il mayın 30-da Qəzzaya humanitar yardım aparan Türkiyəyə məxsus "Mavi Mərmərə" gəmisində olan 10 nəfəri öldürüblər. Bu hadisədən sonra iki dövlət arasında münasibətlər gərginləşib, diplomatik əlaqələr kəsilib.

# Həyatınızı dəyişmək istəyirsinizsə...

### İDMAN EDİN

İdman insanın əhvalının yaxşılaşması üçün sınanmış metodlardan biridir. Hər səhər edilən idman sizin bütün gün ərzində gümrah qalmağınıza yardımçı olacaq.

### TƏŞƏKKÜR EDİN

Xoşunuza gələn hərəkətə görə mütləq səbəbkara təşəkkür edin. Minnətdarlıq həyatda çox vacibdir. Bu xüsusiyyətə görə sizi daha çox sevəcəklər.

### YENİ BİR ŞEYİ SINAQDAN KEÇİRİN

Bu o demək deyil ki, siz dünyanı kəşf etməlisiniz. Adətən etmədiyiniz bir işi görməyə, yaxud heç yemədiyiniz yeməyi dadmağa çalışın.

### PİS VƏRDİŞLƏRİNİZİ TƏRGİDİN

Pis vərdişlərinizi tərgidin. Qısa vaxtda fərqi hiss edəcəksiniz.

### BAĞIŞLAMAĞI BACARIN

Hər gün özünüzə xoşbəxtlik gətirən bir şey edin. Sizi sakitləşdirən və rahatlaşdıran işlər görməyə çalışın.

Əsəbi cilovlamaq sizin ömrünüzü uzada bilər. Səhv hərəkət edəni bağışlamağa çalışın. Bağışlamaq bacarığı sizin özünüzə də bir rahatlıq bəxş edəcək.

### GÜLÜN

Gülüş həyatın bütün qəribəliklərinə qarşı ən yaxşı silahdır. Vəziyyətdən asılı olmayaraq, gülümsəməyə çalışın. Depressiya, kefsizlik problemlərin həlli yolu deyil. Gülüş həm də ağrıları yüngülləşdirir.

### DİNLƏMƏYİ BACARIN

Ətrafınızdakılara diqqət göstərin. Onda onlar da sizə qarşı eyni cür davranacaqlar. Sizə öz problemlərini danışanları, hətta əlinizdən bir kömək gəlməyəcəyini bilsəniz belə, axıra kimi dinləməyə çalışın.

### HİSSLƏRİNİZİ BÖLÜŞÜN

Özünüzə qapanmayın. Başqalarından xoşbəxtliyinizi və ya kədərinizi gizlətməyə çalışmayın. Öz hisslərinizi bölüşməyiniz sizi təravətli saxlayacaq.

### ÖZ QEYDİNİZƏ QALIN

Sizə enerji verən qidalar qəbul edin. Bəzənin. Öz ürəyinizin səsi ilə hərəkət edin.

### HƏR GÜN OXUYUN

Vaxtınız olan kimi kitab oxuyun, jurnal və məqalələrlə maraqlanın. Mütaliə beyninizi inkişaf etdirəcək və dünyagörüşünüzü genişləndirəcək. Kitab oxumaq həmçinin sizə bir sakitlik gətirəcək.

### ÖZÜNÜZƏ GÜVƏNİN

Özünüzə qarşı inamlısınızsa, həyatda müvəffəqiyyət qazanacaqsınız. İşinizə, fikirlərinizə güvənin.

### HƏR BİR HALDA ŞÜKÜR EDİN

Fikirləşin ki, ağrı-acı tək sizə qismət deyil. Dünyadakı hər bir kəs həyatı boyu sınaqlarla, acılarla qarşılaşır. Özünüzdən daha böyük problemi olanları düşünün və təsəlli tapın. Bunu tez-tez etsəniz, bir qədər yüngülləşərsiniz.

### GÜNDƏLİK İŞLƏRİNİZİ SİYAHIYA ALIN

Yatmağa getməzdən öncə növbəti gün üçün planlarınızı tərtib edin. Həmçinin bütün gün ərzində etdiklərinizin hesabatını özünüzə verin. Əgər xoşunuza gəlməyən bir iş görmüsünüzsə, sabahkı planınızda səhvinizi düzəldin.

**N. SÜLEYMANOVA**

# Tehranda Xəzəryanı ölkələrin nəqliyyat nazirlərinin görüşü keçirilib

**Dekabrın 23-də Tehranda Xəzəryanı dövlətlərin nəqliyyat nazirlərinin 3-cü görüşü keçirilib.**

Tədbiri açan İran İslam Respublikasının yol və şəhərsalma naziri Abbas Axundi Xəzəryanı dövlətlərin əməkdaşlıq əlaqələrindən danışıb.

Qeyd olunub ki, müasir dünyada nəqliyyat əlaqələri iqtisadi inkişafın əsasını təşkil edir.

Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov ölkəmizdə nəqliyyatın inkişafına göstərilən dövlət qayğısından və həyata keçirilən islahatlardan danışıb. Bildirib ki, Xəzəryanı dövlətlərin nəqliyyat əlaqələri inkişaf mərhələsindədir. Bu görüş gələcəkdə əlaqələrin daha da yaxınlaşmasına səbəb olacaq. Bakıda və Həştərxanda keçirilən görüşlərdə ölkələrin nəqliyyat infrastrukturlarının yenilənməsinin vacibliyinin vurğulandığını xatırladan nazir, Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas ölkəsi olaraq yüklərin rahat və təhlükəsiz çatdırılması üçün böyük islahatlar həyata keçirdiyini, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə nəqliyyat sektorunda köklü dəyişikliklərin baş verdiyini bildirib.

Azərbaycan tranzit imkanlarından səmərəli istifadə etmək qərarına gələrək yeni nəqliyyat layihələri reallaşdırır, deyən Z.Məmmədov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb. "Bu qurum strukturlar arasındakı əlaqələri, tariflərin müəyyənləşdirilməsini tənzimləyir. Koordinasiya Şurası artıq işə başlayıb, onun qərarı ilə Aktau ilə Türkmənbaşı limanlarına yüklərin daşınması üçün ödənilən rüsumlar 40 faiz aşağı salınıb. Şuranın belə tədbirləri beynəlxalq nəqliyyat daşımalarının asanlaşmasına xidmət edir", - deyə nazir bildirib.

Bakı yaxınlığında Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin davam etdiyini söyləyən Z.Məmmədov limanda yeni texnologiya və ekoloji standartların tətbiq edildiyini deyib. "Böyük yük gəmilərinin qarşılanması və yola salınması üçün də terminal inşa edilir. İlkin mərhələdə limanın yükaşırma imkanı 10 milyon ton, 50 min konteyner həcmində olacaq. Bütün işlər başa çatandan sonra isə limanın yükaşırma qabiliyyəti 25 milyon tona, konteyner daşımaq imkanı isə 1 milyon konteynerə çatdırılacaq", - deyə nazir bildirib.

Qeyd olunub ki, bu gün Azərbaycanda yolların əsaslı təmiri və yeni yolların salınması işi davam etdirilir. Son illərdə 3 min kilometr beynəlxalq və 6 min kilometr respublika əhəmiyyətli yollar inşa edilib. Dəmir yollarında da islahatlar aparılır. Yeni qatarlar və vaqonlar alınır. Bakı-Tbilisi-Qars beynəlxalq dəmir yolu xəttinin inşası 2016-cı ildə yekunlaşacaq. Bu xətt Qafqaz regionunu Asiya və Avropa ilə birləşdirəcək.

Z.Məmmədov nəzərə çatdırıb ki, Xəzəryanı ölkələrin iqtisadi əlaqələrini nəzərə alsaq, Şimal-Cənub nəqliyyat dəhlizi diqqəti daha çox cəlb edir. Bu dəhlizin Azərbaycan ərazisindən keçməsi vaxta qənaət etməklə yanaşı, yüklərin təhlükəsiz və rahat şəkildə mənzil başına çatdırılması deməkdir. Bu gün Azərbaycan ilə İranın dəmir yolları sistemlərinin birləşdirilməsi istiqamətində işlər həyata keçirilir. Astara (Azərbaycan)-Astara (İran) 8 kilometrlik yolun tikilməsi iki ölkənin nəqliyyat sektorunun inkişafına xidmət edəcək, region dövlətlərinin nəqliyyat bağlantısını təmin edəcək.

Sonra Rusiyanın nəqliyyat naziri Maksim Sokolov, Türkmənistanın, Qazaxıstanın nümayəndələri çıxış edərək nəqliyyat əlaqələrinin genişləndirilməsinin, yükdaşımaların artırılmasının vacibliyini vurğulayıblar.

Görüşdə müzakirələr aparılıb, yeni təkliflər nəzərdən keçirilib.

Görüşün sonunda Xəzəryanı ölkələrin nəqliyyat nazirlərinin birgə Bəyannaməsi qəbul edilib.

**AZƏRTAC**

# Xəzər suitisi tükənirmi?

**Xəzər suitisi (Pusa Caspica Gmelin) dənizin yeganə məməlisidir və dünyada ən kiçik qulaqsız suiti növlərindən biridir. O, yem zəncirinin başında dayanaraq həm də hövzənin ekoloji vəziyyətinin önəmli göstəricisi rolunu oynayır. XIX əsrin sonlarında Xəzərdə suitilərin sayı 1 milyondan çox idi. Növbəti yüz il ərzində tənzimlənməyən ov, çirklənmə və digər səbəblərdən rəqəm xeyli azalaraq 1996-cı ildə IUCN adı altında tanınan Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin "Qırmızı siyahı"sına vəziyyəti "zəif" statusu ilə daxil olub. O zaman dənizin ümumi sahəsində hər 2 kvadratkilometrə 1 suiti düşürdü. 2008-ci ilin oktyabrında status dəyişərək "təhlükəli" yazısı ilə daha çox həyəcan doğuranda isə bu canlıların sayı cəmi 104 min idi və 4 kvadratkilometrə 1 suiti hesablanırdı. Bəs bugünkü vəziyyət necədir?**



### Bədbin statistika

Xəzər suitiləri dənizin şimalında qışda əmələ gələn buzlaqlarda balalayır. Hər ana ildə cəmi 1 bala verir ki, bu da onların ümumi sayını müəyyənləşdirməyə kömək edir. Lakin bu limit onların nəsil artımına ciddi əngəldir. Sözügedən məməlilər yetkinliyə və cütləşməyə 7-8 yaşında çatır, 50 ilə qədər ömür sürə bilirlər.



Şimaldan cənuba və geriyə il boyu səyahət edən suitilər 5 ölkəni payızın əvvəlinə qədər sahilbəsahil gəzirlər. Onlar əvvəlki dövrlərdə yaz və payızda dənizin hər yerində görünürdülər. Bu heyvanların müvəqqəti dayanacaq kimi əsas məskunlaşma yelərindən biri qartal başına bənzər Abşeron yarımadasının sahilləri və aralıdakı adalar idi. Yarımadanın lap qurtaracağında, qartalın dimdiyindən uzanmış dilə bənzəyən Şahdili ərazisi Abşeron arxipelağında suitilərin ən çox toplaşdığı yerlərdən idi. 1930-cu illərdə arxipelağın sahillərində hər il 10 minə qədər suiti dincəlirdi. Həttə 1935-1937-ci illərdə bu rəqəm 100 mindən 200 minə qədər olub. Əsrin sonuna qədər suitilərin sayı dramatik şəkildə azalıb və 1970-80-ci illərdə məlum olub ki, Şahdili və ətraf adalarda ildə cəmi 2 minə qədər suiti məskunlaşıb. Növbəti onillikdə bu heyvanların Azərbaycan sahillərində sayı qəfil azalıb və mini keçməyib. Alimlər burada sonuncu suiti məskəninə 2002-ci ilin martında rast gəliblər və təxminən 100 suiti görüblər. Bütün bu faktlar Azərbaycan Milli Elmlər Akademiyasının Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyinin direktoru, biologiya üzrə fəlsəfə doktoru Tariyel Eybatovun son 44 ildə apardığı tədqiqat nəticəsində aydın olub.

Şahdilidə 1969-cu ildə ceyran və su quşlarının qorunması məqsədilə Abşeron Dövlət Təbiət Yasaqlığı yaradılmışdı. 2005-ci ilin fevralında canlıların daha səmərəli qorunması üçün Prezident İlham Əliyevin sərəncamı ilə bu ərazinin bazasında Abşeron Milli Parkı yaradılıb. Dövlət səviyyəsində mühafizə tədbirlərinə baxmayaraq, həmin ilin qışında burada sonuncu dəfə 2 diri suitiyə rast gəlinib. O vaxtdan indiyə qədər adıçəkilən ərazidə heç bir suiti görünməyib. Əvvəllər Abşeron arxipelağında il boyu müşahidə olunan suiti məskənləri artıq mövcud deyil.

Yarımadanın iki arxipelağından digəri 30-dan çox adası olan Bakı arxipelağıdır ki, XX əsrin əvvəllərində burada da xeyli suiti düşərgəsi var idi. XXI əsrdə bu adalarda suitiyə rast gəlinməyib. T.Eybatov son 20 ildə arxipelaqda yalnız Gil adası sahilində 2 diri suiti görüb.

### Beynəlxalq həyəcan

1997-ci ildə 5 dövlətin sahillərində kütləvi tələfat baş verib. Cəsədlərdən götürülmüş nümunələrdə xlor üzvi birləşmələrinin (organochlorine - OCs) miqdarının yüksək olduğu müəyyən olunub. Sonra, 2000-ci il aprel-iyun aylarında şimalda başlamış növbəti kütləvi tələfat oktyabrda İrana çatıb. O vaxt təkcə Abşeronun 100 kilometrlik şimal sahilində 2210 ölü suiti tapılıb. İlk dəfə ingiltərəli professor Seamus Kenedi tələfatın əsas səbəbini CDV kimi tanınan it taunu xəstəliyi ilə diaqnozlaşdırıb. Qeyd olunan virus mədə-bağırsağı korlayır, göz yaşarması, burun axması, qusma, qızdırma və digər əlamətlərlə müşahidə olunur.

2001-ci ildə kütləvi tələfatın üçüncü dalğası baş verəndə çoxlu suiti cəsədini görən alimlər düşündülər ki, görəsən, hazırda Xəzərdə ümumən nə qədər suiti sağdır və hər il onlardan nə qədəri ölür. Bu məqsədlə "Xəzər suitilərinin mühafizəsi" layihəsi yaradılıb. Layihənin ilk seminarı 2006-cı ilin sentyabrında Bakıda keçirilib. Tədbir müddətində xarici alimlər T.Eybatovla birgə Bakı yaxınlığında adalara yollanıblar. Onlar gözlənilməz hal kimi heç bir suitiyə rast gəlməyiblər.

İsveç alimi Tero Harkonen yazır ki, 2005-ci ildə Xəzərdə suitilərin ümumi sayı 104 min idi. Bu, XIX əsrin sonundakı 1 milyonluq nəslin 10 faizini təşkil edirdi. Həmin ildə balaların sayı 19 min olub. Üç il sonra - "qırmızı siyahı"da vəziyyət "təhlükəli" yazılandan bir neçə ay əvvəl 6 min suiti doğulmuşdu. Bu rəqəmlə suitilərin ümumi sayını təsəvvür etmək çətin deyil.

### Çirkli faktlar

Bir qrup alim suitilərin kütləvi qırılmalarının səbəbini dənizin xlor üzvi birləşmələri (organochloride - OCs) ilə çirklənməsində görürdü. Lakin digər qrup alimin məqalələrində göstərilir ki, Xəzərin neft istehsal edən böyük region olmasına baxmayaraq, karbohidrogen çirklənmələrini 1997-ci ildə yetkin suitilərdə xəstəliklərin, xüsusən də CDV-nin əsas səbəbi kimi müəyyən etmək mümkün olmayıb. Odur ki, virusun nədən əmələ gəldiyi hələ də naməlum qalır.

Suitilərin ümumi sayını müəyyən etmək üçün köməkçi faktorlardan biri də ölü heyvanları saymaqdır. Onlar ildənilə azalırsa, deməli, dirilər də azalır. Ona görə də sahilə çıxan cəsədlər çoxalanda alimlər üçün "pozitiv mesaj" olur.

### Aman, ovçu...

Son 100 ildə Xəzər suitilərinin 90 faiz azalaraq 1 milyondan 100 minə düşməsi düzgün tənzimlənməyən kommersiya məqsədli ovlar ilə əlaqələndirilir. Dənizdə suiti ovunun dəqiq qeydiyyatı 1867-ci ildə başlanılıb və bu, onların ümumi sayının müəyyən olunmasına xeyli kömək edir. O zaman ümumən ovlanan suitilərin sayı ildə 30 mindən 110 minə qədər dəyişirdi. 1940-cı illərdə isə rəqəm 40 minə, daha sonra 20 minə enib. 1960-cı illərdə buzlaqlarda illik ov rəqəmləri lap azalaraq getdikcə balaların üzərində məhdudlaşmağa başlayıb. 2004-cü ildə rus ovçular hər il 3-4 min suiti ovlayırdı.

Rusiya Xəzərin ətrafında 5 dövlətdən ibarət Su Bioehtiyatları Komissiyasına rəhbərlik edir, lakin IUCN-in "qırmızı siyahı"sında "təhlükəli" statusunu və XSBTQ-nin tədqiqatlarının nəticələrini qəbul etmir. Şimal qonşu ölkə hesab edir ki, Xəzər suitiləri dənizin yığım məhsullarıdır və hər il 18 min suiti ovlanması normadır. Halbuki rus ovçular tapa bildikdə ilə cəmi bir neçə min bala ovlaya bilirlər.

Suitilərin sayca məhdudlaşmasının səbəbləri sırasında balıqların azalması və iqlim dəyişiklikləri də göstərilir.

*(Davamı var)*

İlham MƏMMƏDOV

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Оператор смешанного транспорта — Kombinə edilmiş nəqliyyat vasitələri operatoru

### MULTIMODAL TRANSPORT OPERATOR - COMBINED TRANSPORT OPERATOR MTO/CTO

Оператор занятый сквозным сервисом (through transport servise), обеспечивающий доставку грузов «от двери до двери» (со склада на склад, со склада на площадку и тл., в зависимости от пожеланий грузополучателя). При этом оператор несет ответственность за доставку груза до места назначения. Доказательством заключения договора между оператором и грузополучателем является сквозной транспортный документ, который выдается оператором лицу, имеющему право на груз. Документ может быть оборотным (т.е. с правом передачи прав на груз)

Birbaşa xidmətlə (servislə) məşğul olan (through transport servise) operator, yüklərin "qapıdan qapıyadək" (anbardan-anbaradək, anbardan meydançayadək və yükalanın istəyindən asılı olaraq bir yerdən başqa yerə) çatdırılmasını təmin edir. Bu halda operator yükün təyinat yerinə çatdırılması üçün məsuliyyət daşıyır. Birbaşa nəqliyyat sənədi operatorla yükalan arasında müqavilənin bağlanmasını sübut edir və yükə hüququ olan şəxsə operator tərəfindən verilir. Həmin sənəd dövriyyəli (yəni yükə olan hüququn başqasına verilməsi hüququ ilə) ola bilər.

### Оплата фрахта — Fraxtın ödənilməsi

### PAYMENT OF FREIGHT

Порядок оплаты фрахта определяется чартером. Применяются следующие способы расчетов по фрахту:

1) В зависимости от количества груза: а) за погруженное количество груза, т. е. за коносаментное количество, когда коносамент в плане оплаты фрахта является окончательным доказательством перевезенного количества груза; б) за доставленное количество груза, когда груз при выгрузке пересчитывается (перевешивается) и фрахт оплачивается за фактически доставленное количество груза.

2) В зависимости от времени оплаты: а) полная оплата фрахта по доставке и выгрузке груза, т.е. по выполнении судовладельцем своих обязательств. Обычно в чартерах оговаривается обязанность фрахтователя выплатить 90-95% фрахта до начала выгрузки и лишь 5-10% после полной сдачи груза и расчета диспача; б) полная оплата фрахта после подписания коносаментов в течение 2-3-х банковских дней, в любом случае до начало выгрузки. На случай непредвиденных обстоятельств, чтобы приобрести право на фрахт, судовладельцы добиваются включения в чартер условия о том, что фрахт считается заработанным вне зависимости от того, погибли судно и/или груз или нет.

Fraxtın ödənilməsi qaydası çarterlə müəyyənləşdirilir. Fraxt üzrə hesablaşmaların aşağıdakı üsulları tətbiq edilir:

1) Yükün miqdarından asılı olaraq: a) yüklənmiş yükün miqdarına görə, yəni konosamentdə qeyd olunmuş miqdara görə, bu zaman fraxtın ödənilməsi planında konosament daşınmış yükün miqdarının qəti sübutudur; b) çatdırılan yükün miqdarına görə, bu zaman yük boşaldılarkən yenidən sayılır (yenidən çəkilir) və fraxt faktiki çatdırılmış yükün miqdarına görə ödənilir.

2) Ödəniş vaxtından asılı olaraq: a) yükün çatdırılması və boşaldılması üzrə fraxtın tam ödənilməsi, yəni gəmi sahibi öz öhdəliklərini yerinə yetirəndən sonra. Adətən, çarterlərdə fraxtedənin boşaltma başlayana kimi fraxtın 90-95%-ni, qalan 5-10%-i isə yalnız yük torn təhvil veriləndən və dispaç hesablandıqdan sonra ödəməsi öhdəliyi şərtləşdirilir; b) 2-3 bank günü ərzində konosamentlər imzalandıqdan sonra fraxtın tam ödənilməsi, istənilən halda boşaltma başlayana kimi. Gözlənilməz hallar baş verdikdə, fraxta hüququ əldə etmək üçün gəmi sahibləri, gəminin və/və ya yükün məhv olub-olmamasından asılı olmayaraq, fraxtın qazanılmış hesab edilməsi ilə bağlı şərtin çarterə daxil edilməsinə çalışırlar.

### Опцион — Opsion

### OPTION

Право выбора определенного договорного условия, принадлежащее одной из сторон и обязательное для другой стороны, если первая своевременно объявит об его использовании.

Müəyyən müqavilə şərtini seçmək hüququ, tərəflərdən birinə məxsusdur. Əgər birinci tərəf onun istifadəsi barədə vaxtında elan edərsə, digər tərəf üçün məcburidir.

### Ордер — Order

### ORDER

Распоряжение фрахтователя о следовании судна в тот или иной порт погрузки или выгрузки, даваемое судну в обусловленное время или по его прибытии в пункт, предусмотренный чартером. Обычно применяется в тех случаях, когда в чартере не указывается наименование портов погрузки/выгрузки, а фрахтователю предоставляется право выбора портов в пределах определенного района или ренджа.

Şərtləşdirilmiş vaxtda, yaxud çarterdə nəzərdə tutulmuş məntəqəyə gəldikdən sonra gəminin bu və ya digər yükləmə və ya boşaltma limanına hərəkət etməsi barədə fraxtedənin gəmiyə verdiyi sərəncam. Adətən çarterdə yükləmə/boşaltma limanlarının adlarının qeyd edilmədiyi hallarda tətbiq olunur, fraxtedənə isə müəyyən rayon və ya renc hüdudlarında limanları seçmək hüququ verilir.

### Осмотр грузов перед отправкой — Yola salınmazdan əvvəl yüklərə baxış

### SURVEY BEFORE SHIPMENT

1) Осмотр грузов перевозчиком перед отправкой с целью избежания выдачи «чистого» коносамента;

2) Более детальный осмотр грузов перед отправкой специальными лицами по требованию страховщика в тех случаях, когда в объем ответственности по условиям страхования включается риск порчи или риск соответствия товара в пункте назначения его количеству и качеству, указанным в гарантии. В результате такого осмотра выдается сертификат об осмотре (survey certificate), в котором фиксируется количество и качество груза.

1) "Təmiz" konosament verməkdən yayınmaq məqsədi ilə daşıyıcının yüklərə yola salınmazdan əvvəl baxış keçirməsi;

2) Sığortanın şərtləri üzrə məsuliyyətə xarab olma (korlanma) riskinin və ya təyinat məntəqəsində malın zəmanət sənədində göstərilmiş miqdara və keyfiyyətə müvafiqlik riskinin daxil edildiyi hallarda, sığortaçının tələbi ilə yola salınmazdan əvvəl yüklərə xüsusi şəxslərin daha ətraflı baxış keçirmələri. Belə baxış nəticəsində müayinə sertifikatı (survey certificate) verilir ki, burada yükün miqdarı və keyfiyyəti qeyd olunur

### Остановка груза в пути — Yükü yolda saxlamaq

### STOPPAGE IN TRANSITY

Право оригинального грузоотправителя остановить груз в пути, дать указание капитану вернуться обратно, если покупатель оказался не в состоянии оплатить груз.

Alıcı yükün haqqını ödəmək qabiliyyətində olmadıqda, əsil yükgöndərənin yükü yolda saxlamaq, kapitana geriyə qayıtmaq barədə göstəriş vermək hüququ.

### Остров — Ada

### ISLAND

Согласно Конвенции о территориальном море и прилежащей зоне это естественно образованное пространство суши, окруженное водой и расположенное над уровнем наибольшего прилива (п. 1 ст. 10). Территориальное море острова отмеряется в соответствии с постановлением данной конвенции (п.2 ст. 10). В Конвенции дается определение такой разновидности островов, как обсыхающие при отливе возвышения, и говорится, что данные возвышения, расположенные от материка или острова полностью на расстоянии, превышающем ширину территориального моря, не имеют своего территориального моря. Острова, расположенные в глубине залива, рассматриваются как часть его водного пространства. Искусственные острова не имеют своего территориального моря, и их наличие не влияет на определение границ морских пространств.

Ərazi dənizi və bitişik zona haqqında Konvensiyaya əsasən su ilə əhatə olunmuş və suyun ən çox yüksəlmə səviyyəsindən (dəniz qabarması) yuxarıda yerləşən (10-cu maddə, 1-ci bənd), təbii surətdə yaranmış quru məkanıdır. Adanın ərazi dənizi bu Konvensiyanın qərarına (10-cu maddə, 2-ci bənd) müvafiq surətdə ölçülür. Konvensiyada suyun çəkilməsi zamanı quruyan torpaq yüksəkliklərinə adaların növ müxtəlifliyi kimi tərif verilir və qeyd edilir ki, tamamilə materikdən və ya adadan ərazi dənizinin enindən artıq olan məsafədə yerləşən həmin yüksəkliklər öz ərazi dənizinə malik deyil. Körfəzin ən içəri hissəsində yerləşən adalar onun su məkanının bir hissəsi kimi nəzərdən keçirilir. Süni adaların öz ərazi dənizi olmur və onların mövcudluğu dəniz məkanlarının sərhədlərinin müəyyənləşdirilməsinə təsir göstərmir.

### Ответственность страховщика — Sığortaçının məsuliyyəti

### INSURERS LIABILITY

Основная обязанность страховщика, его ответственность за убытки только в пределах страховой суммы. Однако убытки по общей аварии возмещаются страховщиком даже в тех случаях, когда общая сумма выплат может превысить страховую сумму. В страховых полисах ответственность страховщика, как правило, определяется в результате указания в общей форме убытков, которые возмещает страховщик и указания в более конкретной форме убытков, за которые он не отвечает. Например, страховщик не отвечает за убытки, произошедшие вследствие умысла (malice) или грубой неосторожности (grass negligence), а также за убытки из-за естественной убыли грузов (товаров) или их ненадлежащей упаковки (improper packing).

Sığortaçının əsas vəzifəsi, ancaq sığorta məbləği həddindəki zərərlərə görə məsuliyyəti. Lakin ümumi qəza üzrə zərərlərin əvəzi, hətta ödənişlərin ümumi məbləğinin sığorta məbləğindən yüksək olduğu hallarda belə, sığortaçı tərəfindən ödənilir. Sığorta şəhadətnamələrində sığortaçının məsuliyyəti, bir qayda olaraq, sığortaçının ödədiyi zərərlərin ümumi formada və onun cavabdeh olmadığı zərərlərin daha konkret formada göstərilməsi nəticəsində müəyyənləşdirilir. Məsələn, sığortaçı qəsdən (malice) və ya kobud ehtiyatsızlıq (grass negligence) üzündən, habelə yüklərin (malların) təbii itkisi və ya onların lazımi qaydada qablaşdırılmaması (improper packing) səbəbindən dəymiş zərərlərə görə cavabdeh deyil.

*(Davamı var)*

# Xoşbəxtliyi necə əldə etməli?

***Nobel mükafatçısı, iqtisadçı Angus Deaton hesab edir ki, rifah ilə xoşbəxtlik hissi arasında müəyyən əlaqə var. Xoşbəxtliyi pulla almağı mümkünsüz sayanlar üçün Prinston Universitetinin iqtisadiyyat və beynəlxalq əlaqələr üzrə professoru Angus Deatonun fikirləri gözlənilməz görünə bilər.***

**Xoşbəxtlik nədir?**

Hələ ki, filosoflar bu məsələdə yekdil fikrə gələ bilmirlər. Professor Deatonun sözlərinə görə, xoşbəxtliyi ölçmək üçün o, əsasən, iki məsələyə diqqət verir. Birincisi gündəlik xoşbəxtlik hissilə bağlıdırsa, ikincisi insanın ümumilikdə həyatından razı qalıb-qalmamasını nəzərdə tutur. Misal üçün, professor belə bir sual verə bilər: "Dibi 0 xal, zirvə nöqtəsi isə 10 xal olan həyat nərdivanında siz özünüzü harada görürsünüz?"

**Xoşbəxtliyi pulla almaq mümkündür?**

Professor Deatonun sözlərinə görə, insanların həyatdan razı olub-olmamaları birbaşa onların gəliri ilə bağlı olur. Yəni Bill



Geyts ondan daha az var-dövləti olanlarla müqayisədə özünü daha xoşbəxt hiss etməlidir. "Bu, loqarifmik şkalaya bənzəyir, nərdivanda yüksəlmək üçün sizə getdikcə daha çox pul lazım olur", – professor Deaton deyir. Beləliklə, ən azı, həyatdan razılıq hissini təmin etmək üçün pulla xoşbəxtliyi "almaq" olarmış.

**Gündəlik xoşbəxtlik hissi**

Bəs görəsən, hər gün "Necəsən, işlərin necə gedir?" sualına cavab verən insanlar gün ərzində yaşadıqlarını necə dəyərləndirirlər? Professor Deaton hesab edir ki, gündəlik xoşbəxtlik hissi də puldan asılıdır, lakin bu, əsasən, illik gəliri təxminən 75000 dollar olanlara aiddir. Professorun sözlərinə görə, ABŞ-da ildə 75000 dollardan az qazananlar maddi təminatlarından narahatlıq hissi keçirdiklərindən, özlərini daha az xoşbəxt hiss edirlər. "Pulsuzluq insanın gündəlik həyatını miskinləşdirirsə, normadan yuxarı əlavə qazanc elə bir böyük fərq etmir", – deyə professor qeyd edir. Beləliklə, "Xoşbəxtliyi pulla almaq olarmı?" sualının cavabı qazancın miqdarı ilə yanaşı, xoşbəxtlik anlamının konkret şəxs tərəfindən necə başa düşüldüyündən də asılıdır.

# YENİ İLİ NECƏ QARŞILAYIRLAR

**Yeni il ilk dəfə 1594-cü ildə Fransada qeyd olunub. IX Karlın fərmanı ilə Təzə il yanvarın 1-dən başlanıb. Bu yenilik ildırım sürətilə bütün dünyaya yayılıb.**

Fransa əyalətlərində indi də köhnə ənənəyə əməl olunur. Yeni ildə ilk olaraq su dalınca bulağa gedən ev sahibəsi oraya bayram süfrəsindən pay aparır. Bu da, adətən, qoğal və bulkadan ibarət olur. Bu bayram payını ertəsi gün başqa birisi götürür. Əvəzində öz gətirdiyini bulaq başına qoyur. Beləliklə, qadınlar gecəyarısına qədər bir-birini bu cür qonaq edirlər. Fransada şirin fətirlə bərabər, qızardılmış şabalıd süfrəyə xüsusi gözəllik gətirir. Süfrədə mütləq göbələk supu, bal, kələm turşusu, süddə qızardılmış peçenyelər olmalıdır.



Əlbəttə, Yeni ili hər bir xalq, millət öz ənənəsinə uyğun keçirir. Rusiyada, İtaliyada, eləcə də Avropanın bir çox ölkələrində, Amerikada Yeni ili müxtəlif adət-ənənələrə uyğun qarşılayırlar. Dekabrın 31-də bütün evlərdə bayram süfrələri açılır. Hər bir xalqın da özünəməxsus süfrə mədəniyyəti var. Yeni il süfrələri müxtəlif şərabların, cürbəcür içkilərin çoxluğu ilə seçilir.



İtaliyada bu bayramı beş gün keçirirlər. Süfrəyə mütləq meyvə piroqu, balıq, bal, noxud düzülür. Hətta yeni il axşamı köhnə ev əşyalarının pəncərədən küçəyə atılması ənənəsi hələ də qalmaqdadır. Küçədən keçənlər üçün heç də təhlükəsiz olmayan bu adətə əməl edən italyanlar düşünürlər ki, nə qədər çox mebel atılsa, Yeni il öz gəlişi ilə həmin ailəyə bir o qədər sərvət gətirə bilər.

Rusiyada isə hər bir evdə kilsə şamları yandırılır. Süfrəyə mütləq müxtəlif yeməklər, salatlar, içkilər, piroqlar qoyulur. İnanclara görə süfrə nə qədər zəngin və gözəl olarsa, qarşıdan gələn il də elə gözlənilir. Rusların süfrəsinin tən ortasında mütləq qızardılmış donuz balası qoyulmalıdır. İnanca görə, donuz var-dövlət simvoludur. Süfrəyə quş ətindən heç nə verilməz. Belə hesab edilir ki, xoşbəxtlik evdən uça bilər. Gələn qonaqlara xəmirdən hazırlanmış müxtəlif fiqurlu şirniyyatlar paylanılar. Yeni il axşamı mütləq təzə paltar və ayaqqabı geyinilməlidir. Yaxın adamlar bir-birini təbrik edir, qonaq gedir, yemək-içmək səhərədək davam edir.

Avropanın çox ölkəsində Yeni ili fəxri şəkildə qarşılayırlar. Elə ölkə var ki, orada Şaxta baba, elə yerlər də var ki, orada uşaqların Şaxta nənəsi olur. Şaxta babanın adı Noel ata, Şaxta nənənin ismi isə Befandır. Avropada belə bir fikir də dəbdədir ki, Yeni il axşamı ən yaxşısı evindən bayıra çıxmamaqdır. Bunun da bir səbəbi var. Həm o axşam pəncərədən atılan köhnə mebellər sənin üstünə düşməz, həm də bayramı hansı ovqatla qarşılasan, elə o əhval-ruhiyyə ilə də sona çatdırarsan.

Almaniyada ilkin olaraq Yeni il tortu bişirilir, süfrəyə donuz əti qoyulur. Elə ki, saatlar gecəyarısını göstərir, müxtəlif yaş təbəqəsinə mənsub insanlar sanki balaca uşağa dönürlər. Masa, stol, kreslonu "ata" döndərib atılıb-düşürlər. Beləliklə, onlar da Yeni ili bu şəkildə qarşılayırlar.

İngiltərədə də Yeni ilin özünəməxsus qarşılanma mərasimi var. Burada ən çox sevinən uşaqlardır. Çünki bütün gecəni küçələrdə oyuncaqlar, maskalar, hava şarları satılır. Yeni il axşamı ingilislər ənənəvi ağ pudinq yeyirlər. Lakin onlar bunu çox ehtiyatla istifadə edirlər – çünki onun içərisində yararsız əşyalar da olur. Odur ki, pudinq loteriya kimidir. Kimə yaxşısı, kimə də pisi düşə bilər.

Şotlandiyada isə Yeni il qəribə bir hayküylə qarşılanır. Çəlləkdə qətran yandırılır və onu küçə boyu diyirləyirlər. Bu, şotland inancına görə, köhnə ilin yandırılması deməkdir. Guya bundan sonra Yeni ilə yol açılır. Bu ölkədə hələ qədimdən hesab edirlər ki, Yeni ilin gəlişindən sonra evə girən ilk adam ya xoşbəxtlik, ya da bədbəxtlik gətirər. Ona görə də evə ilk



dəfə girməyə hər kəs tərəddüd edir. Deyirlər ki, şotland evinə ilk dəfə hədiyyə ilə tünd saçlı kişi daxil olsa, bu, xoşbəxtlik əlamətidir.

İrlandiyada həmin gecə evlərin qapıları taybatay açıq qalmalıdır. Kimin ürəyi hansı evi istəsə, daxil ola bilər. Çünki onu orada əziz qonaq kimi qarşılayaraq, bayram süfrəsi ətrafında ən şərəfli yerdə əyləşdirəcək və şirin şəraba qonaq edəcəklər. İrlandlar bayram axşamı badə qaldırarkən belə söyləyərlər: "Bu evdə və bütün dünyada sülh naminə".

Macarıstanda isə Yeni il günü oyuncaq tütəklər, fit hədiyyə etmək dəbdədir. Xalq inancına görə, bu musiqi alətlərinin təsirli səsi evdəki cinləri qovar və evlərə sevinc, firavanlıq gətirə bilər.



Rumıniyada Yeni il axşamı süfrəyə içərisində kiçik sürprizlər – qəpiklər, farfor fiqurlar, acı bibər qabığı olan qoğal qoyulur. Kimin qoğalında üzük tapılsa, bu, o deməkdir ki, Yeni il ona xoşbəxtlik gətirəcək. Acı bibər qabığı isə sadəcə gülüş doğurmaq məqsədilə qoyulur.

Hindistanda bu bayramı əyalətlərdən asılı olaraq müxtəlif cür qarşılayırlar. Ölkənin şimal əhalisi özlərini ağ, qırmızı, çəhrayı və bənövşəyi çiçəklərlə bəzəyir. Hindistanın mərkəzində evlər bənövşəyi bayraqlarla diqqət çəkir. Qərbdə isə evlərin damında mütləq od qalayırlar. Bayram ərəfəsində analar böyük qablara uşaqlar üçün aldıqları hədiyyələri, şirniyyatları, gülləri düzürlər. Yeni ilin ilk günü ertədən uşaqları gözü bağlı nimçəyə yaxınlaşdırırlar ki, onlar öz hədiyyələrini seçsinlər. Kimin qismətinə nə düşərsə...

Qəribədir ki, İndoneziyada Yeni ili on gün qeyd edirlər. Allahların şərəfinə rənglənmiş düyüdən "yeməli sütun" düzəldirlər. Düzdür, bu yeməli sütundan Allahlara bir şey qalmır. Bayramdan sonra sütunlar sökülür, düyünü isə hər kəs öz evinə aparır. Düyü demişkən, Vyetnamda da Yeni ili düyü yeməyi ilə qarşılayırlar. Yeni il axşamı hər kəs akvariumda saxladığı balığı çaya və ya gölməçəyə buraxır. Vyetnamlılara görə, balığın belində Allah üzür. O, Yeni il günü səmalara çəkilir və orada Yer üzündən insanların necə yaşamasından asılı olaraq həmin ailəyə sovqat göndərir.



Monqolustanda Yeni il bir növ heyvandarlıq bayramı ili kimi qeyd edilir. Bu ölkədə Şaxta babanı Çoban əvəz edir. Həmin gün monqollar müxtəlif idman yarışları keçirir, xüsusən də, çəldlik və mətinlik üzrə yarışmalar təşkil edirlər. Həmin gün cıdır da olur.

Kubada Yeni il gecə saat yalnız 11 dəfə vurur. On ikinci zəng Yeni ilə düşür. Cəmi bir saat ərzində insanlar bayramı sakitcə qeyd etməli, gecəyarı pəncərədən küçəyə su atmalıdırlar. Yeni ildə atılan su insanların həyatına aydınlıq gətirər – deyirlər.

Dünyanın bir çox yerində qurulan yolkanın başına mütləq ulduz taxırlar. Bunun da mənası var. Ulduz mələklərlə ünsiyyətə işarədir. O gecə mələklər evlərə baş çəkir, insanların arzu və istəklərini eşidib Tanrıya çatdırırlar. Bu səbəbdən də yolkaların üzərindəki ulduz mələkləri qarşılamaq mənasını daşıyır.

Bizim üçün Yeni il axşamının bir gözəlliyi də Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün həmin axşama düşməsidir. Süfrəmizdə ləziz yeməklərlə bərabər, milli mətbəximizin gözəl təamları da qoyulur. Şəhərimizin küçə və meydanlarında qurulmuş nəhəng yolkalar isə Bakımızın gözəlliyinə əlavə gözəllik qatır, insanlara fərəh və sevinc bəxş edir.

## YARIZARAFAT, YARIGERÇƏK

- Ayağını iştahasına görə uzadanın yorğanı ən azı nə boyda olmalıdır?
- Qaranlıqdan aydınlığa həmişə yol var. Aydınlıqdan zülmətə aparan yolları isə insanlar özləri çəkirlər.
- İnsanlar adətən qırxdan sonra səhvlərini dərk edir və sonrakı ömürlərini də təəssüf ki, oxşar səhvlərlə yaşayırlar.
- Qəribədir, heç bir işə vaxt tapmayan səhv etməyə vaxt hardan tapır?
- İşıq gələn tərəfi qoyub, it hürən tərəfə getmək istəyən ən azı it oynadan deyil.
- Tez-tez gülün. Ən azı elə bilərlər ki, dərdiniz yoxdur.
- Mənə o qədər yol göstərən olub və o qədər yol göstəriblər ki... Düz yol isə bir dənə olur axı...
- İsti yandıra biləcəyi üçün ağzımıza çay əvəzinə su alırıq?
- Göyərçin hara, xoruz hara? Görəsən çox adam niyə ağzından göyərçin yox, xoruz buraxır?
- Adamın cibi dolu olanda cib başa, cibi boş olanda isə baş cibə işləyir.
- Haqlı olmağınla yanaşı, həm də güclü ol ki, haqqını yeməsinlər.
- Necə gözəl dinə sahib olduğumuzu düşmənlərimiz bizdən yaxşı bilirlər. Elə ona görə bütün yollar və vasitələrlə aramızda düşmənçilik toxumu səpməyə çalışırlar.
- Eyni mənzilə qorxu ilə də, inamla da gedib çatmaq olar. Finişdə ləzzəti də ayrı-ayrı olur.
- Bəzən mənə elə gəlir ki, bostanıma daş atmayanın daşı qurtarmayıbsa, deməli gücü tükənib.
- Adamları tanımayan onların səhvlərindən, özünü tanımayan həm də öz səhvlərindən ziyan görür.
- Görəsən hər oxuyanın səsi heç olmasa özünə xoş gəlir?
- Cılız adamlar nadanlardan daha qorxuludur.
- Ya mərhəmətli olun, ya da olduğunuzdan artıq mərhəmət tələb etməyin.

*Rasir TAHİROV*

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

Aldığınız təzə avtomobil sizi sevindirmirsə, deməli onu arvadınız üçün almısınız və kredit də sizin adınıza sənədləşdirilib.

***

– Ata, həyat yoldaşı ömürlük olur, yoxsa...
Ata dərindən ah çəkə-çəkə deyir:
– Ömürlük, ay oğul, ömürlük.
– Deyirsən yəni məktəbdən də pisdir?!

***

Aptekdə:
– Kişi üçün hansı yaxşıdır: validol, yoxsa valeryanka?
– Diaqnoz nədir?
– 700 manata ayaqqabı.

***

Mərasimdə çıxış edən cərrah deyir:
– Biz həkimlərin bu dünyada çoxlu düşməni var.
Stol arxasında oturanlardan biri dillənir:
– O dünyada daha çoxdur.

***

– Bu gün nə edirsən?
– Heç nə!
– "Heç nə"ni dünən eləmişdin axı?
– Yarımçıq qalmışdı.

***

Nahaq düşünürsünüz ki, siz heç kimə lazım deyilsiniz. İnanmırsınızsa, gündüz yatmağa çalışın. Gör nə qədər adam sizə zəng edəcək. Hətta tanımadığınız adamlar da.

***

Velosipedçi maşın və benzin almır, sığorta etmir, kredit götürmür. Maşını yumağa, dayanacaqda saxlamağa görə pul xərcləmir. Sağlam olduğu üçün dava-dərmana da pulu çıxmır. Bir sözlə,velosipedçi iqtisadiyyat üçün bir bəladır.

***

– Həkim, indi eşitdim ki, məni tələbə Siderov əməliyyat edəcək. Bu, doğrudur?
– Hə, əməliyyat sabaha təyin olunub.
– Siz nə danışırsınız, həkim! O, məni kəsib-doğrayacaq.
– Elə olsa, biz də ona "2" qiymət verəcəyik.

# TƏQVİM 2016

| | YANVAR | FEVRAL | MART | APREL | MAY | İYUN | |
|---|---|---|---|---|---|---|---|
| Be | 4 11 18 25 | 1 8 15 22 29 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | Be |
| Ça | 5 12 19 26 | 2 9 16 23 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | Ça |
| Ç | 6 13 20 27 | 3 10 17 24 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | Ç |
| Ca | 7 14 21 28 | 4 11 18 25 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | Ca |
| C | 1 8 15 22 29 | 5 12 19 26 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | C |
| Ş | 2 9 16 23 30 | 6 13 20 27 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | Ş |
| B | 3 10 17 24 31 | 7 14 21 28 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | B |

| | İYUL | AVQUST | SENTYABR | OKTYABR | NOYABR | DEKABR | |
|---|---|---|---|---|---|---|---|
| Be | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | Be |
| Ça | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | Ça |
| Ç | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | Ç |
| Ca | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | Ca |
| C | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | C |
| Ş | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | Ş |
| B | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | B |

**1, 2 yanvar** Yeni il bayramı
**20 yanvar** Ümumxalq hüzn günü
**8 mart** Beynəlxalq Qadınlar günü
**20-24 mart** Novruz bayramı
**9 may** Faşizm üzərində Qələbə günü
**28 may** Respublika günü
**15 iyun** Milli Qurtuluş günü
**26 iyun** Azərbaycan Silahlı Qüvvələri günü
**6, 7 iyul** Ramazan bayramı
**12, 13 sentyabr** Qurban bayramı
**9 noyabr** Dövlət Bayrağı günü
**31 dekabr** Dünya Azərbaycanlılarının Həmrəyliyi günü

*Düşün, tap!*

## SUAL BİZDƏN, CAVAB SİZDƏN

**Sual işarəsinin yerində hansı ədəd olmalıdır?**
Gəmi = 22
Dəniz = 23
Tanker = 33
Gəmiçilik=?

***

**Sual işarəsinin yerində hansı ədəd olmalıdır?**
Tank = 6785
Tanker = 678594
Bərə = 3242
Bilet = 31096
Balet = ?

***

**Sual işarəsinin yerində hansı ədəd olmalıdır?**
HAVAYI = 51
HAVAQIZDIRICI = 51111
YARIŞ = 1
AXTARIŞ =101
XƏZƏR=?

***

Corab – 5 manat; ayaqqabı – 8 manat; şalvar – 6 manat; köynək – 6 manat olsa, papağı neçə manata almaq olar?

***

ATA =XVX ;
QAR = IXL olarsa,
QATAR = ?

***

**Aşağıdakı sözləri nə birləşdirir:**
Redaktor, mirzə, dolğun, faiz, siyahı

***

N, A, R, K, T, M hərflərindən istifadə etməklə 9 hərfli söz düzəldin.



## Müqəddəs mərasim

**Afrikanın Bandiaga bölgəsində hər il isti hava şəraitində sular çəkiləndən sonra xüsusi mərasim keçirilir. Yerli afrikalılar suyu çəkilmiş gölün dibində qalan balıqların ovlanması üçün ayrıca bir gün təyin edirlər. İldə bir dəfə təşkil olunan mərasimədək göldən ov ovlamaq qadağandır.**



Nəzərdə tutulan gün yerlilər balıq tutmaq üçün gölə gəlirlər. Yazılmamış qanunlara görə, silah səsi gələndən sonra hər kəs gölə hücum edir və balıq tutmağa çalışır. Sadəcə, 15 dəqiqə ərzində göldəki bütün balıqları tutmaq mümkün olduğundan mərasim tez başa çatır. Bəziləri balıqları elə çiy-çiy də yeyir. İldə bir dəfə keçirilən bu mərasim müqəddəs hesab edilir.

"Balakən" gəmi-bərəsi kapitanının ikinci köməkçisi Nağıyev Ramil Əliçoban oğluna Azərbaycan Dövlət Dəniz Administrasiyası tərəfindən 03.06.2009-cu ildə verilmiş DQK 002701 saylı "Dənizçinin qeyd kitabçası" və 02.10.2014-cü ildə verilmiş AZE 011449 saylı "Dənizçinin şəxsiyyət sənədi" itdiyi üçün etibarsız sayılır.

**Allah rəhmət eləsin**

Xəzər Dəniz Nəqliyyat Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun kollektivi Konstruktor şöbəsinin rəisi **İlqar Əmirxanova,** anası

**Firuzə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*BAŞ REDAKTOR*
**Rasif İman oğlu TAHİROV**

**ÜNVANIMIZ:**
**AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22**
**TELEFONLARIMIZ:**
**Baş redaktor (050) 670-33-76,**
**Redaktor (070) 252-39-02**

*Qəzetin təsisçisi*
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir**

**Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur**

**Şəhadətnamə 271**
**Sayı 2000**
**Sifariş 129**